**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№285/2** **31 yanvar 2017-ci il**

**“Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2017-cı il üçün Plan-qrafik” barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.2-ci "Auditor fəaliyyətinə kənar nəzarətin təmin edilməsi üçün müvafiq hüquqi və institusional tədbirlərin davam etdirilməsi" bəndinin 3.2.1-ci "Keyfiyyətə nəzarətə dair iş sənədlərinin və müvafiq cədvəllərin hazırlanması və təqdim edilməsi" yarımbəndinə uyğun olaraq **“**Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2017-ci il üçün Plan-qrafik**”**in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2017-ci il üçün Plan-qrafik” təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinə (V.Kərimov) və Palatanın Auditin keyfiyyətinə nəzarət şöbəsinə (Y.Namazəliyev) tapşırılsın ki, 2017-ci il ərzində həyata keçiriləcək auditor xidmətinin keyfiyyətinə nəzarət işini “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”ın müddəalarına uyğun olaraq təşkil və təmin etsinlər.

3. Bu qərarın və “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2017-ci il üçün Plan-qrafik**”**in Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**